https://doi.org/10.36719/2706-6185/42/22-28

**Aygün Qasımova**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
filologiya elmləri üzrə fəlsəfə doktoru
a.qasimova62@gmail.com

# Hüseyn Arifin yaradıcılığında saz və aşıq obrazı

**Xülasə**

Hüseyn Arif ənənəvi şerin qoşma janrının XX əsrdəki ən böyük nümayəndələrindəndir. S.Vurğundan sonra bu yolu davam etdirənlər sırasında şairin adı birincilər sırasındadır. Hüseyn Arif öz yaradıcılığında qoşma, gəraylı, təcnis, nağıl, əfsanə və dastanlardan geniş istifadə etmişdir. Hüseyn Arif ədəbiyyatımıza yazılı, poetik ənənələrlə həkk olunub. O, milli şeirin forma və məzmun xüsusiyyətlərini mükəmməl mənimsəyib, özünə ustad hesab etdiyi heç bir sənətkarı təkrarlamayıb. Orijinal, novator şeirləri və poemaları ilə yeni bir sənət zirvəsi yaradıb. Şifahi xalq ədəbiyyatının əksər janrlarından bəhrələnən Hüseyn Arif, daha çox ozan-aşıq sənəti ilə bağlı olmuşdur. Onun saz və aşıq obrazları ilə bağlı bir sıra şeir və poemaları vardır ("Saz müxəmməsi", "Aşıq Ələsgərə", "Sazım dillənir", "Saz bayramı"– şeirləri, "Sazın tellərindədir", "Saza toxunma", "Dilqəm", "Alı kişi" poemaları və s.).

***Açar sözlər:*** *Hüseyn Arif, şeir, poema, obraz, aşıq, saz, ozan-aşıq*

**Aygun Gasimova**
ANAS Institute of Literature named after Nizami Ganjavi
Doctor of Philosophy in Philological Sciences
a.qasimova62@gmail.com

# The Image of Saz and Ashug in Huseyn Arif's Work

**Abstract**

Huseyn Arif is one of the greatest representatives of the traditional poetry couplet genre in the 20th century. After S. Vurgun, the poet's name is among the first among those who continued this path. Huseyn Arif widely used poems, rhymes, tajnis, tales, legends and epics in his work. Huseyn Arif is engraved in our literature with written and poetic traditions. He perfectly mastered the features of the form and content of the national poetry, and did not repeat any artist whom he considered to be his master. He created a new artistic peak with his original, innovative poems and poems. Huseyn Arif, who benefited from most of the genres of oral folk literature, was more connected to the art of ozan-ashik. He has a number of poems and poems related to the images of saz and love ("Saz mukhammesi", "Ashig Alasgara", "Sazim is talking", "Saz holiday" – poems, "Saz is in the strings", "Don't touch the music", "Dilgam", "Ali kishi" poems, etc.)

***Keywords:*** *Huseyn Arif, poem, poem, image, love, song, poet-love*

## Giriş

Hüseyn Arif çağdaş poeziyamızın ən sevilən, oxunan, sözlərinə mahnılar bəstələnən sənətkarlardandır. Qaçaq Kərəmin soyundan olub, Ağstafa rayonunun Yenigün kəndində dünyaya gələn şair, yatımlı dili, aydın üslubu ilə ötən əsrin poeziyasına yeni çalarlar bəxş elədi. Ədəbi fəaliyyətə İkinci Dünya müharibəsi illərində başlayan şairin librettosu əsasında hazırlanan "Azad" tamaşası 1957-ci ildə Opera və Balet Teatrında, "Yolda" poeması əsasında yazdığı eyniadlı pyesi 1974-cü ildə Gənc Tamaşaçılar Teatrında tamaşaya qoyulub. 1971-ci ildə "Dağ kəndi" poemasına görə "Qızıl oraq" mükafatına layiq görülüb. Əsərləri keçmiş SSRİ və bir sıra xarici ölkə xalqlarının dilinə çevrilib. Şeirlərinə musiqilər bəstələnib. 1976-cı ildə Sarayevo Beynəlxalq Poeziya Günlərinin, 1979-cu ildə Liviyada "SSRİ Günləri"nin iştirakçısı olub. Azərbaycanın Xarici Ölkələrlə


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Dostluq və Mədəni Əlaqələr Cəmiyyətində şöbə müdiri, "Azərnəşr"in Bədii Ədəbiyyat redaksiyasında böyük redaktor, "Gənclik" nəşriyyatında bədii ədəbiyyat redaksiyasının müdiri və Azərbaycan Aşıqlar Birliyinin sədri vəzifələrində çalışıb.

**Tədqiqat**

Hüseyn Arifin sazla, sözlə bağlılığı hamıya məlumdur. Onun söz xəzinəsi zəngin və rəngarəngdir. Şairin yaradıcılığı ənənəvi poeziyamızın ozan-aşıq yaradıcılığının davamıdır.

Hüseyn Arif hələ uşaq ikən Əsədin, Mirzənin, Qədirin, Nağının, Göyçəli Yunusun, Museybin və başqa ustadların sazına, söhbətinə qulaq asmış, Göyçə mahalının Çil kəndində müəllimlik etdiyi müddətdə isə saza daha yaxından bələd olub, saz havalarını çalmağı öyrənib, söz kimi sazı da müqəddəs hesab edib. Saz obrazı Hüseyn Arif poeziyasının təkcə məzmununa yox, eyni zamanda poetik strukturuna daxil olub. Onun hər şerində sazın ahəngi, ritmi duyulur. Bu cəhətdən bütün şerləri saz havalarına, aşıq şeir janrlarına köklənib. Sanki bütün poetik düşüncələrini sazdan alıb, sazın hikməti ilə sözün hikmətini məharətlə birləşdirib.

Şairin "Saz müxəmməsi"ndə saz və söz həmişə bir yerdədir. Bunların vəhdəti türk adət-ənənəsinin, qəhrəmanlıq tarixinin yaşanması, gələcək nəsillərə ötürülməsidir. Türkün gücü, qüvvəsi sazda və sözdədir. "Saz müxəmməsi"ndən çıxan əsas ideya bundan ibarətdir.

Enişli-yoxuşlu ömrün yolunda,
Sevinclə, kədərlə yüklənmişəm mən.
Qarlı zirvələrin dalıb seyrinə,
Başımı dik tutub diklənmişəm mən.
Məğrur dağ kəliylə ülfət bağlayıb.
Qartalla bir susub, bir dinmişəm mən.
Vaxt olub səsimə çoxu səs verib,
Vaxt olub meydanda təklənmişəm mən.
Saz deyib, söz deyib yaranışımdan
Saz üstə, saz üstə köklənmişəm mən.

Saz dedim,
söz dedim,
Bir günəş kimi
Əngin üfüqlərdən boylanan sazım,
Gecəylə başını yastığa qoyub,
Sabahla göz açıb, oyanan sazım,
Haqqın, ədalətin çatıb dadına,
Süngüylə yanaşı dayanan sazım.
İyidlər köksündə nərə çəkərək,
Köhlənlər qanına boyanan sazım.
Zalımla, zülmlə baş-başa gəlib,
Gah alışan sazım, gah yanan sazım
(Aşıq, Bağrına Bas Sədəfli Sazı, 2023, s. 90).

Hüseyn Arifin poeziya aləmi mövzu baxımından genişdir. Şairin təbii və canlı dili ilə seçilən əsərlərində həyatın öz nəfəsi duyulur. Xalqın içində olan şairin əsas qayəsi, Vətənə məhəbbətin, mənəvi-əxlaqi zənginliklərin təbiət gözəllikləri ilə vəhdətdə tərənnümündən ibarət olub. Əsərləri ilə ana təbiəti duymağa, qorumağa, doğma torpağın qədrini bilməyə çağırırdı. Vətən, ana torpaq, övlad məhəbbəti kimi bəşəri dəyərləri heç kimə bənzəməyən tərzdə ifa edib. Mərhum alimimiz Xudu Məmmədovun dediyi kimi, "həyatımızda elə bir dəyərli yenilik olmayıb ki, Hüseyn Hüseynzadə ona laqeyd olsun. "Ömrü ömürlərə bağlı olan xalqın verdiyi qiyməti sənətkar üçün ən yüksək qiymət hesab edən şair başqa cür ola bilməz" (Hüseynzadə, s. 10).

Onun nəğməyə bənzər şeirlərinə onlarla mahnı bəstələnmiş, görkəmli bəstəkarların, şairin "Sən mənimlə get", "Mən inanmadım", "Qonşu qız", "Dedim, dedi", "Xatırla məni", "Şeir deyilmi",

"Mən sülhə səs verirəm", "Könül deyir yaşa hələ" kimi bəstələdikləri nəğmələr dillər əzbəri olmuşdur.

Hüseyn Arifin şeir və poemaları XX əsr Azərbaycan poeziya tarixinə həkk olunub. O özündən sonra zəngin bir ədəbi irs qoyub gedib. Hüseyn Arif irsi folklora, xüsusən aşıq poeziyasına qırılmaz tellərlə bağlı idi.

Hüseyn Arifin istər epik poemalarının, istərsə də kiçik həcmli şeirlərinin hər qatında Azərbaycan folkloruna, aşıq yaradıcılığına bir yaxınlıq, bir doğmalıq, hakimdir. Şairin təbii və canlı dili ilə seçilən əsərlərində həyatın öz nəfəsi duyulur.

Ozan-aşıq sənətimizin inkişafında, tədqiqində, təbliğində əvəzsiz xidmətləri olmuşdur. O, Dirili Qurbanini, Aşıq Alını, Aşıq Ələsgəri də eyni məhəbbətlə sevir, onların yaradıcılıqlarının daim uca tutulmasına, təbliğ olunmasına can yandırır, qayğı göstərərdi. Əslində, Hüseyn Arif poeziyası tək özünün deyil; poeziyada aşıq Ələsgər yaşayır, H.Saraçlı yaşayır, Molla Cümə yaşayır.

"Ay Mirzə dayı" şeirində bu hiss və duyğu öz əksini belə tapmışdır:

Mən beşikdə ikən telli sazınla
Laylamı sən çaldın, ay Mirzə dayı
Yenə dilləndirdin Yanıq Kərəmi,
Canıma od saldın, Ay Mirzə dayı!

Ağır toylar gördün, nişanları gördün,
Mahaldan mahala atını sürdün,
Gəlinlər gətirdin, qızlar köçürdüm
Çox nəmərlər aldın, ay Mirzə day

Sənət meydanında imtahan olur,
Hüseynin əhvalı pərişan olur,
Səsin tutulanda könlüm qan olur,
Sən niyə qocaldın, ay Mirzə dayı?! (Hüseyn Arif, 2004, s. 128)

Şeir sənəti və saz vəhdətini, birliyini, "Sözdə Vurğun, Sazda Mirzə" şerində görmək olur. Şairin fikrincə, söz sənətində Səməd Vurğun hansı zirvəni fəth edibsə, saz sənətində də Aşıq Mirzə eyni müvəffəqiyəti təkrar edib. Şerdə hər iki sənətkar ustad kimi xatırlanır. Bu iki qarşılaşdırma vasitəsi ilə şerdə sazın və sözün vəhdətini görürük.

Aşıq dostum yenə, deyim sənə,
Sözdə Vurğun, sazda Mirzə.
Qoy eşitsin ellər yenə
Sözdə Vurğun, sazda Mirzə.

Dilimizin qüdrətidir.
Ağzımızın ləzzətidir,
Yurdumuzun şöhrətidir,
Sözdə Vurğun, sazda Mirzə (Hüseyn Arif, 2004, s. 116).

Aşıq Ələsgərə"
Gəzdi Qarabağda, Mildə, Muğanda,
Camaat başına döndü, nə döndü.
Ustadlar ustadı sayılanda da,
Ustadı yanında şagirdə döndü.

Təmkinli duruşu, uca qaməti
İgid babaları xatırladardı.

Onda Dədə Qorqud əqli, hikməti,
Həm də qoç Koroğlu vüqarı vardı.

Qıymadı yaxşıya, qıymadı mərdə,
Bir dost arxasında bir mahal oldu.
Yeri bilindikcə xeyirdə, şərdə,
Gənc ikən mötəbər ağsaqqal oldu

Zalımlar önündə titrədi zağ-zağ,
Atdığı hər güllə hədəfə dəydi.
O, Vaqifdən sonra, Vurğundan qabaq
Elə bil saz tutub, söz deməliydi (Hüseyn Arif, 2004, s. 159).

Hüseyn Saraçlıya ithaf olunmuş "Küsülü getdi" şeiri

Gəlmişdi yanıma bir işdən ötrü,
Gözündə həsrəti, nisgili getdi.
Ustadlar ustadı sürdü köçünü,
Səsində həm bəmi, həm zili getdi.

Loğman tapılmadı, dərman gec oldu,
Candakı ağrılar cana güc oldu.
Hanı Əsəd, Mirzə, Əmrah necoldu?
Saz-söz dünyasının şah nəsli getdi.

Neyləyim, deyilən başa batmadı,
Kəmfürsət, darqafa sözə yatmadı,
Hüseyn Arifin gücü çatmadı,
Hüseyn Saraçlı küsülü getdi (Arif, 1992, s. 38).

Molla Cüməyə

Əziz ustad, kim xətrinə dəyibdi,
Alışmısan alov təki, od təki.
Nə səbəbdən dilin elə deyibdi,
"Canı yanan ya bir olar, ya iki".

Bəd ayaqda kimlər çatdı hayına,
Elə odur dost-müsahib gen düşür.
Taleyə bax yaradanın payına,
Həsrət düşür, möhnət düşür, qəm düşür.

Biri ad batırıb biri ad alıb,
İsmət səadətdir qızda, gəlində.
İsmi pünhan kimi kim pünhan qalıb,
Aşığın dilində, sazın telində (4, s 146).

Hüseyn Arif xalqımızın zəngin bədii-poetik irsinə əsaslanan, epos təfəkkürünü, etnoqrafik yaddaşı geniş əks etdirən zəminində dəyərli əsərlər yazıb. O, müasir Azərbaycanın öz milli-mədəni köklərinə qayıdışını təmin etmək üçün tariximizi çağdaş həyatımızın iştirakçısı edir.

Xalq yazıçısı Mirzə İbrahimov yazır: "Aşıq poeziyası və aşıq sənəti uzun əsrlər boyu Azərbaycanda nəinki ən güclü sənət tribunası olmuş, xalqın estetik tərbiyəsində mühüm rol oynamış, həm də vacib siyasi-ictimai əxlaqi və fəlsəfi vəzifələri yerinə yetirmişdir (İbrahimov, 1966, s. 3).

"Dilqəm" poeması saza, aşıq sənətinə ucaldılan ən böyük abidədir. Məqsədini gerçəkləşdirmək üçün şair aşıq poeziyasının tarixi keçmişini araşdırdı.

"Aşıqlar" kitabına
Baxıram
Varaq-varaq.
Dilqəmdən nə var? – deyə
Qəlbimdə həsrət,
Maraq.
"Telli saz ustaları"
Baxıram dönə-dönə
Hər sətrə
Hər cümləyə,
Səhifə arxasınca
Açılan səhifəyə:
Dilqəmdən nə var? – deyə (Hüseyn Arif, s. 384).

Poema XVIII əsrin sonu, XIX əsrin I yarısında yaşayıb yaratmış, Azərbaycan milli ədəbiyyatının davamçılarından biri Yəhya bəy Dilqəm haqqındadır. Əslində Yəhya bəy olmuş, amma nakam məhəbbətin Dilqəm etdiyi aşığın ağrılarını yaşadı.

Axdı qulağıma yanıqlı səsi
Çoban bayatısı, el şikəstəsi.
Sağımda, solumda isti nəfəsi,
Arxamda Dilqəmdir, qarşımda dilqəm.

Şeiriyyət qoxulu yayım, payızım
Başqa bir aləmdən qalxır avazım.
"Dilqəmi" üstündə köklənib sazım
Qəlbimdə Dilqəmdir, başımda Dilqəm (Hüseyn Arif, s. 377).

Hüseyn Arif "Aşıq Alı" poemasında Aşıq Alı obrazını yaratmamışdan qabaq axtarışlar aparmış, mətbuatda məqalələr çap etdirmişdir. Onun "Mən Aşıq Alını axtarıram" məqaləsindən sonra xeyli oxucu məktubu almışdı.

Sənə elə qondu meylim,
Heç bilmədim səndən ötrü
Mən neyləyim?
Hara yazım, kimə deyim,
Aman, Allah,
Nə kökdədir,
Nə gündədir
Aşıq Alı?!
Xəbər tuta yaxın-uzaq,
Bakı, Şəki, Şəmkir, Qazax.
Bu niyyətlə
Yolu, izi alıb ələ
Qızılgəngə etdim səfər.
Qədim Göyçə-doğma yerlər.

Salamlaşdıq,
O şairdən
Bu aşıqdan
Söhbət açdıq.
Neçə qoca, neçə cavan,
Neçə-neçə sinədəftər.
Məclis şirin, söz mənalı (Hüseyn Arif, 2014, s. 110).

Hüseyn Arif Aşıq Alının dərin mənalı bənzərsiz ədəbi irsini yüksək qiymətləndirmişdir. Aşıq Alı böyük təcnis ustası olduğundan el arasında onu "Təcnis Alı", "Loğman Alı", "Dədə Alı", "Şıx Alı" da deyə çağırmışlar. Aşığın ədəbi irsi bütövlükdə bizə gəlib çatmasa da əldə olan qoşma, təcnis, təsnif, bayatı, gəraylı, ustadnamə deyişmələrin hər biri əsil sənət nümunəsidir.

Həyatda daş üstə daş qoyan kəsin
Toxunmaz yelkəni daşa dünyada.
El üçün daş qoyub, baş qoyan kəsin
Çəkilər şöhrəti başa dünyada.

İtirmə əslini bircə an da sən,
Sellərdə, sularda boğulsan da sən.
Adi insan kimi doğulsan da sən,
Aşıq Alı kimi yaşa dünyada (Hüseyn Arif, 2014, s. 110-116).

"Saz tellərində"dir poemasında Saz obrazı həm də etnoqrafik yaddaşın poetik ifadəsidir. Sazda böyük bir millətin tarixi ənənələri, milli təfəkkürü, keçmişi, gələcəyi, müdrikliyi, qəhrəmanlığı yaşayır.

Həyatın ilkindən, yaranışından,
Sazla tutulubdur mayamız bizim.
Ona könül verdik əzəl yaşından,
Sevincli, kədərli dünyamız bizim.

Hüseyn Arifəm, yanmaqdır peşəm,
Ustad babalardır fikrimdən keçən.
Bir gün o tellərdən aralı düşsəm,
Bilin, o dünyada artıq yoxam mən (Hüseyn Arif, 2014, s. 145-150).

Saz Hüseyn Arif yaradıcılığında həm də sülh rəmzi, əmin-amanlıq əlamətidir. Saz həmişə xalqı birliyə, sakit ömür sürməyə, kimsəyə zülm etməməyə çağıran bir vasitədir. "Saza toxunma" poeması buna bir nümunədir. Şairə görə, insan bu dünyada əbədi deyil. Ona görə də həmişə xeyirxah olmalı, xalqın yaratdığı sənət əsərlərinə, saz sənətinə xor baxmamalıdır. Saz bir də ona görə müqəddəsdir ki, o, Dədə Qorqud yadigarıdır.

Bir xəbər eşitdim,
Nə yaman xəbər,
Az qala beynimə sıçramışdı qan.
Zərbələr dalınca dəli zərbələr,
Bu necə qərardı, bu necə fərman.

Həqiqət dilindən çəkilir dara,
Ağıl da zülmətdə dustaq olarmış.
Saz tutub, söz deyən bir sənətkara,

Çayxana küncü də yasaq olarmış.
Olarmış,
Olarmış,
Elə olarmış... (Hüseyn Arif, 2014, s. 166-178).

## Nəticə

"Son 50 ildə yeganə lirik şairdir ki, bu qədər folklorlaşdı. Bu gün Azərbaycanın elə bil kəndi yoxdur ki, orada məclislərdə Hüseyn Arifin sözü söylənməsin" (Ağayeva, 2024).

Şair bizimlə milli-mənəvi dəyərlərimiz arasında, bu günlə keçmişimiz arasında sadəcə vasitəçidir. Hüseyn Arif yaradıcılığı hikmətli sözlər boğçasıdır. Onun yaradıcılığı bu gün də gənc nəslin tərbiyəsində öz önəmini qoruyub saxlayır, xalqımız, dilimiz yaşadıqca Hüseyn Arif poeziyası da yaşayacaq, seviləcək, öyrəniləcəkdir.

## Ədəbiyyat

1. *Aşıq, bağrına bas sədəfli sazı* (Saz və aşıqlarla bağlı şeir antologiyası). (2023). Azərbaycan Aşıqlar Birliyi.
2. Ağayeva, İ. (2024). *Təbiət və gözəllik şairi*. F. Köçərli adına Uşaq Kitabxanası.
3. Arif, H. (1992). *Dünya fikir dünyasıdır. Şeirlər və poemalar.* Yazıçı.
4. Hüseynzadə, H. *Şairin şer dünyası*. Seçilmiş əsərləri. Xudu Məmmədov. İki cilddə, I cild. Azərnəşr.
5. Hüseyn Arif. (2004). *Seçilmiş əsərləri*. Şərq-Qərb.
6. Hüseyn Arif. *Poemalar, topl. və red. Z. Hüseynzadə*. Cild 4. MBM.
7. Hüseyn Arif. (2014). *Poemalar, pyeslər, tərcümələr. topl. və red. Z. Hüseynzadə*. Cild 5. MBM.
8. İbrahimov, M. (1966). *Aşıq poeziyasında realizm*. Azərbaycan SSR EA nəşriyyatı.

Daxil oldu: 27.09.2024
Baxışa göndərildi: 05.10.2024
Təsdiq edildi: 21.11.2024
Çap olundu: 30.12.2024